# Azərbaycan Xalq Parlamenti

**Address:** **169 63 Solna, Sweden** **Phone:** **+4915205921770** **e-mail:** info@azxp.org
**Web:** www.azxp.org

## Azərbaycan Xalq Parlamentinin

## Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri

## Əli Kərimlinin həbsi ilə əlaqədar

## B Ə Y A N A T I

Azərbaycan Xalq Parlamenti dərin təəssüflə bildirir ki, bu gün ölkədə siyasi məhbusların sayı artıq 400 nəfəri keçmişdir. Məhkəmə sistemi faktiki olaraq icra hakimiyyətinin idarə etdiyi mexanizmə çevrilmişdir. Müxalif siyasi liderlər təhlükəsizlik orqanları vasitəsilə bir-bir sıradan çıxarılır və ölkə sürətlə açıq diktatura mərhələsinə yaxınlaşdırılır. Hazırda dünyada baş verən müharibələr və qlobal siyasi böhranlar fonunda insan hüquqları və demokratiya məsələlərinin ikinci plana keçməsi, beynəlxalq ictimaiyyətin Azərbaycanı görməzdən gəlməsi isə mövcud rejim tərəfindən siyasi repressiyalar üçün fürsət kimi istifadə olunur.

Azərbaycan Xalq Parlamenti AXCP sədri Əli Kərimlinin belə bir şəraitdə həbs edilməsini ölkədə siyasi repressiyaların yeni və daha təhlükəli mərhələsi kimi qiymətləndirir. Cəmiyyətdə Əli Kərimli barəsində irəli sürülmüş ittihamlar və bu ittihamların mahiyyəti, sübut bazası və hüquqi əsasları ilə bağlı ciddi çaşqınlıq və şübhələr mövcuddur.

Azərbaycan Xalq Parlamenti mövcud siyasi şəraitdə qəti şəkildə tələb edir ki, Əli Kərimlinin işi üzrə obyektiv və qərəzsiz araşdırma aparılsın, proses tam aşkarlıq şəraitində həyata keçirilsin və cəmiyyətə, eləcə də xalqa dəqiq, dolğun və rəsmi məlumat verilsin. Əks halda bu prosesin hüquqi yox, siyasi sifariş olduğu şübhəsi daha da möhkəmlənəcəkdir.

Azərbaycan Xalq Parlamenti bildirir ki, bu prosesin bütün gedişatı AzXP tərəfindən daim nəzarətdə saxlanılacaq, hər bir hüquq pozuntusu sənədləşdiriləcək və həm ölkə ictimaiyyətinə, həm də beynəlxalq qurumlara təqdim olunacaqdır.

Xatirə Cəbrayılova

**Azerbaijan Xalq Parlamentinin Sədri**

05.12.2025